İPƏK YOLU, No.2, 2022, səh.167-172

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ BAKI QUBERNIYASINDA ETNO-DEMOQRAFİK DƏYİŞİKLİKLƏR

**Rəna Əsədova[1,2], Kəmalə Həsənova[1]**

[1]AMEA Tarix İnstitutu, Bakı, Azərbaycan
[2]Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: rena-beyler@gmail.com, kamalah664@gmail.com

**Xülasə.** Məqalədə XIX əsrin son – XX əsrin ilk onilliklərində Bakı quberniyası, xüsusən də Bakı şəhəri Rusiya imperiyasının iqtisadi cəhətdən çox böyük sürətlə inkişaf edən bölgəsi kimi təhlil edilir. Bu cəhətdən Bakı quberniyasında və Bakı şəhər rəisliyində etno-demoqrafik proseslərə göstərilən güclü təsir, birinci dünya müharibəsi dövründə həm əhalinin sayı sürətlə artması, həm də əhalinin etnik tərkibində ciddi dəyişikliklər baş verməsi öyrənilir.

**Açar sözlər:** Bakı quberniyası, Bakı şəhər rəisliyi, əhali, demoqrafik dəyişikliklər, milli tərkib.

## ETHNO-DEMOGRAPHIC CHANGES IN BAKU PROVINCE DURING THE FIRST WORLD WAR

**Rena Asadova, Kamala Hasanova**
*Institute of History ANAS, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the Baku province in the late 19th and early 20th centuries, especially the city of Baku, as a region of the Russian Empire that developed rapidly economically. In this regard, the strong impact on ethno-demographic processes in the Baku province and Baku city administration, the rapid growth of the population during the First World War, as well as significant changes in the ethnic composition of the population are studied.
**Keywords:** Baku province, Baku city government, population, demographic changes, national composition.

## ЭТНО-ДЕМОГРАФИЧЕСКИЕ ПЕРЕМЕНЫ В БАКИНСКОЙ ГУБЕРНИИ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**Рена Асадова, Камала Гасанова**
*Институт Истории НАНА, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется Бакинская губерния в конце 19 - начале 20 веков, особенно город Баку, как быстро развивавшийся в экономическом отношении регион Российской империи. В связи с этим изучается сильное влияние на этнодемографические процессы в Бакинской губернии и Бакинском городском управлении, быстрый рост населения в годы Первой мировой войны, а также значительные изменения в этническом составе населения.
**Ключевые слова:** Бакинская губерния, Бакинское градоначальство, население, демографические изменения, национальный состав.

## 1. Giriş

XIX əsrin 60-cı illərindən etibarən Bakı ətrafında, bütövlükdə Abşeron yarımadasında sənaye miqyaslı neft çıxarılmasının sürətlə artmağa başlaması, neft emalı müəssisələrinin inşası, həm mədənlərlə neftayırma zavodları arasında, həm də ağ nefti və digər neft məhsullarını Rusiya imperiyasının içərilərinə daşımaq üçün müvafiq nəqliyyat vasitələrinin sayının çoxalması işçi qüvvəsinə tələbatı kəskin şəkildə artırdı. İlk vaxtlar işçi qüvvəsinə tələbat bir qayda olaraq yerli azərbaycanlı əhalinin hesabına ödənirdisə, sonrakı dövrdə Bakı rayonunun dünyanın çox nəhəng neft istehsalı mərkəzinə çevrilməsi ilə əlaqədar yeni işçi qüvvəsinə

ehtiyac da böyük miqyasda çoxaldı. Nəticədə, Qafqazın müxtəlif bölgələrindən, Mərkəzi Rusiyadan, hətta Mərkəzi və Qərbi Avropadan Bakıya iş dalınca gələnlərin sayı sürətlə artmağa başladı.

Ona görə də, XIX əsrin sonlarına doğru Bakı quberniyası, xüsusən də Bakı şəhəri çoxmillətli regiona çevrildi. Birinci dünya müharibəsi ərəfəsinə [1,6] və dövrünə aid statistik toplulardakı [7-9] məlumatlar bunu aydın şəkildə göstərir. "1914-ci il Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1913-cü il yanvarın 1-nə olan məlumata görə həm Bakı şəhər rəisliyində, həm də Bakı quberniyasında əhalinin etnik tərkibi çoxmillətli idi. Həmin vaxt Bakı şəhər rəisliyində 380047 nəfər yaşayırdı ki, onların 163763 nəfəri müsəlman, yəni azərbaycanlı, 103902 nəfəri rus, 74066 nəfəri erməni, 14437 nəfəri polyak və alman, qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [6, s.110-113].

"1915-ci il Qafqaz təqvimi"ndə verilmiş Qafqaz diyarında əhalinin sayı və etnik tərkibi haqqında 1914-cü il yanvarın 1-nə olan məlumata görə həm Bakı şəhər rəisliyində, həm də Bakı quberniyasında əhalinin etnik tərkibində müəyyən dəyişikliklər baş vermişdi. Həmin vaxt Bakı şəhər rəisliyində 379 886 nəfər yaşayırdı ki, onların 182617 nəfəri müsəlman, yəni azərbaycanlı, 99274 nəfəri rus, 67113 nəfəri erməni, 13968 nəfəri polyak və alman, qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [7, s.222-225].

Rəqəmlərdən göründüyü kimi, Birinci dünya müharibəsinin başlandığı 1914-cü ildə Bakı şəhər rəisliyində əhalinin yalnız yarıya qədərini – 48 faizini azərbaycanlılar təşkil edirdilər. Şəhər əhalisinin yarıdan çoxu qeyri-azərbaycanlı əhali idi ki, onların da 26 faizini ruslar, 18 faizini ermənilər, 4 faizə qədərini almanlar və polyaklar, qalanlarını da digər xalqların nümayəndələri təşkil edirdilər.

1913-cü ildə Bakı quberniyasında etno-demoqrafik vəziyyət aşağıdakı kimi idi: əhalinin ümumi sayı quberniya üzrə 704132 nəfər idi ki, onların da 550754 nəfəri müsəlman, yəni azərbaycanlı, 74518 nəfəri rus, 42852 nəfəri erməni, qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [6, s.110-113].

1914-cü ildə Bakı quberniyasında etno-demoqrafik vəziyyətdə müəyyən dəyişikliklər baş vermişdi. Həmin il əhalinin ümumi sayı quberniya üzrə 802021 nəfər idi ki, onların da 666755 nəfəri müsəlman, yəni azərbaycanlı, 72185 nəfəri rus, 42648 nəfəri erməni, qalanları da gürcü, yəhudi və digər xalqların nümayəndələri idilər [7, s.218-221].

Bu statistik göstəricilərdən aydın olur ki, Bakı quberniyasında Birinci dünya müharibəsinin başlandığı 1914-cü ildə əhalinin mütləq əksəriyyəti – 83 faizdən çoxu azərbaycanlılardan ibarət idi. Quberniya əhalisinin 9 faizini ruslar təşkil edirdi ki, onların da mühüm bir hissəsi XX əsrin ilk illərində Mərkəzi Rusiyadan köçürülmüşdülər.

Rus əhalisinin Qafqaza, o cümlədən Bakı quberniyasına köçürülməsi Qafqazın ilk canişini knyaz M.Vorontsovun (1844-1854-cü illər) dövründə sistemli şəkildə həyata keçirilməyə başlanmışdı. Lakin həmin dövrdə Qafqaz diyarında torpaq quruluşunun

nizamlanmaması səbəbindən, həmçinin yerli azərbaycanlı əhalinin torpağa tələbatının ödənilməsini nizama salmadan, rus əhalisinin köçürülməsini təşkil etmək mümkün olmadı. 1898-ci ildə Qafqazın yeni baş hakimi knyaz Q.Qolitsının bu vəzifəyə təyin edilməsindən sonra Mərkəzi Rusiyadan rus əhalisinin Muğanda məskunlaşdırılması istiqamətində ciddi addımlar atıldı. Xüsusən Qolitsın suvarma kanalının çəkilməsi ilə Muğanın şimal hissəsində rus kəndləri salınması geniş miqyas aldı [7, s.99-100]. Artıq 1914-cü il yanvarın 1-nə olan məlumata görə Muğanın daxil olduğu Cavad qəzasında 23804 nəfər rus əhali [8, s.218-221] yaşayırdı ki, bu da ümumi əhalinin – 132008 nəfərin 18 faizini təşkil edirdi.

Çar Rusiyası XX əsrin ilk onilliklərində Muğanda suvarma sisteminin inkişaf etdirilməsi sayəsində pambıq əkini sahələrinin genişləndirilməsini hədəfləyirdi və bu məqsədin reallaşdırılması üçün bu bölgəyə onminlərlə rus əhalisinin, əsasən də Mərkəzi Rusiya quberniyalarından aztorpaqlı və ya torpaqsız kəndli ailələrinin köçürülməsini planlaşdırırdı. Bu plana görə 1916-cı ilə kimi Muğanda 200 min desyatin əkinə yararlı torpağın suvarılması və bunun da 40-50 min desyatin sahəsində yeni köçürüləcək rus ailələri tərəfindən pambıq əkilməsi [2, s.105] nəzərdə tutulurdu. Lakin Birinci dünya müharibəsi başladıqdan sonra hərbi xidmətə yararlı xristian kişi əhalinin kütləvi şəkildə səfərbərliyə alınması ilə əlaqədar Mərkəzi Rusiyadan Muğana rus ailələrinin köçürülməsi prosesi dayandırıldı. Muğana daha əvvəl köçürülmüş rus əhalinin sayı da həm bu bölgədən də hərbi xidmətə yararlı kişilərin səfərbərliyə alınması, həm də dolanışıq şərtləri ağırlaşmış əsgər ailələrinin bir qisminin daha öncə yaşadıqları yerlərə - doğmalarının yanına geri dönmələri səbəbindən azalmağa başlamışdı.

Birinci dünya müharibəsi dövrünə aid son əhali sayımı rəqəmləri 1916-cı il yanvarın 1-nə aiddir. Həmin tarixə olan məlumata görə, Bakı quberniyasında 875746 nəfər yaşayırdı. Bu əhalinin 745862 nəfəri [9, s.178-181]və ya 85 faizdən çoxu azərbaycanlı idi. Qeyd etmək lazımdır ki, F.Əliyeva "Cənubi Qafqazın azərbaycanlı əhalisi" adlı əsərində Bakı quberniyasında 1916-cı ildə azərbaycanlıların sayını 692574 nəfər göstərmişdir [1, s.34-35] və bu sayı müsəlman şiə və müsəlman sünni əhalinin sayını toplayaraq əldə etdiyini bildirmişdir. Biz isə bu saya müsəlman dağlı əhalini də əlavə etmişik.

Bakı quberniyasında 1916-cı ildə rusların sayı 90472 nəfər idi ki, bu da ümumi əhalinin 10 faizindən bir qədər artıq hissəsini təşkil edirdi. Bakı quberniyası əhalisinin 42180 nəfəri erməni, 17561 nəfəri yəhudi, qalanı da digər xalqların nümayəndələrindən ibarət idi [9, c.178-181]. 1914-cü illə müqayisədə 1916-cı ildə quberniya əhalisi 73725 nəfər, o cümlədən azərbaycanlı əhali 79107 nəfər artmış, rusların sayı isə əksinə 9 min nəfərə qədər azalmışdı. Rusların sayındakı bu azalma hərbi səfərbərliklə bilavasitə əlaqədar idi və bu meyl müharibənin sonrakı mərhələsində də davam etməkdə idi.

Müharibənin ilk iki ili ərzində Bakı quberniyasında ümumi əhali sayında azərbaycanlı əhalinin mütləq çəkisi də artmış, 83 faizdən 85 faizə yüksəlmişdi. Bu da hərbi xidmətə çağrılan xristianların, xüsusən də rusların əvəzinə neft mədənlərində və digər sənaye sahələrində azərbaycanlı işçilərə tələbatan kəskin şəkildə artması ilə əlaqədar idi.

1916-cı il məlumatına görə, Cavad qəzasında əhalinin sayı aşağıdakı kimi idi: qəza əhalisinin ümumi sayı 162305 nəfərə çatmış və ya 1914-cü illə müqayisədə 30 min nəfər artmışdı. Qəzanın azərbaycanlı əhalisinin sayı həmin vaxt 135128 nəfər, rusların sayı 26128 nəfər olmuşdu [9, s.178-181]. 1914-cü illə müqayisədə keçən dövr ərzində Cavad qəzasında azərbaycanlı əhalinin sayı 29 min nəfər artmışdı. Qəzanın rus əhalisinin artımı isə iki il ərzində cəmi 2,5 min nəfər olmuşdu. Göründüyü kimi, quberniya üzrə müşahidə edilən tendensiya – azərbaycanlı əhalinin sayının müharibə başladıqdan sonra da sürətlə artması, Cavad qəzasında da müşahidə edilməkdə idi. Bu da Mərkəzi Rusiyadan rus əhalinin Cavad qəzasına və digər Azərbaycan ərazilərinə köçürülməsinin müharibə başlandıqdan sonra dayandırılmasının birbaşa nəticəsi idi.

Quberniya üzrə ermənilərin sayı müharibənin başlamasından keçən iki il ərzində rus əhalisinə nisbətən daha az, cəmi 500 nəfər azalmışdı. Ermənilərin sayında azalmanın belə olması 1915-ci ilin yayında hərbi əməliyyatların şiddətlə davam etdiyi Şərqi Anadoludan erməni əhalisinin kütləvi şəkildə Cənubi Qafqaza, o cümlədən Bakı quberniyasına köçməsi ilə bağlı idi.

1916-cı ilə olan məlumata görə, Bakı şəhər rəisliyində 405829 nəfər yaşayırdı. Bu əhalinin 197940 nəfəri [9, s.182-185] və ya 49 faizə qədəri azərbaycanlı idi. F.Əliyeva yuxarıda bəhs edilən əsərində 1916-cı ildə Bakı şəhər rəisliyinə daxil olan ərazidə azərbaycanlıların sayının 182828 nəfər və ümumi şəhər əhalisinin 45 faizini təşkil etdiyini bildirmişdir [1, s.34-35]. Tədqiqatçı Bakı quberniyasında azərbaycanlı əhalinin sayını müəyyən etdiyi kimi, Bakı şəhər rəisliyində də yalnız şəhərdə yaşayan müsəlman şiə və müsəlman sünni əhalini nəzərə almışdır. Biz isə bu siyahıya həm də müsəlman dağlıları və müsəlman gürcüləri əlavə etmişik.

1914-cü illə müqayisədə 1916-cı ildə Bakı şəhər rəisliyində əhalinin ümumi sayı 26 min nəfərə qədər artmışdı ki, bunun da 15 min nəfərdən çoxu azərbaycanlıların payına düşürdü. Bakı şəhər əhalisinin milli tərkibində də azərbaycanlıların sayı 1914-cü ildəki 48 faizə nisbətən artaraq 49 faizə çatmışdı.

1916-cı ilə olan məlumata görə, Bakı şəhər rəisliyində 105599 nəfəri rus [9, s.182-185] yaşayırdı ki, bu da Bakı əhalisinin 26 faizinə bərabər idi. 1914-cü illə müqayisədə rus əhalisinin sayı 6 mindən çox artmışdı. Bu da müqayisə edilən illərdə rus əhalisinin artım tempinin azərbaycanlı əhalidən geri qaldığını göstərir.

1916-cı ilə olan məlumata görə, Bakı şəhər rəisliyində 75522 nəfəri erməni [9, s.182-185] yaşayırdı ki, bu da 1914-cü illə müqayisədə ermənilərin sayının 8 min nəfər artdığını göstərirdi. Bakı şəhərində ermənilərin sayının belə sürətlə artması, yuxarıda qeyd edildiyi kimi, 1915-ci ilin yayında hərbi əməliyyatların şiddətlə davam etdiyi Şərqi Anadoludan erməni əhalisinin kütləvi şəkildə yaşayış şərtlərinin nisbətən yaxşı olduğu bu şəhərdə yerləşməyə can atmaları ilə bağlı idi. Bütün bunlara baxmayaraq, 1916-cı ildə Bakı şəhər rəisliyində yaşayan ermənilərin sayı şəhərin ümumi əhalisinin cəmi 18,5 faizini təşkil edirdi.

Rəsmi statistik göstəriciləri nəzərə almayan erməni müəllifləri XIX əsrin sonu – XX əsrin ilk onilliklərində Bakı şəhərini bir erməni şəhəri kimi təqdim edir, ermənilərin şəhər həyatında, xüsusən neft sənayesində başlıca mövqe tutduqlarını iddia edirlər. Məsələn, A.Qriqoryan "Erməni Bakısı" adlı əsərinin birinci cildində Bakıda ermənilərin üstünlük təşkil etmələri haqqında doğru olmayan faktları vermişdir. Həmin əsərdə hələ XIX əsrin 60-cı illərində ermənilərin Bakı neft sənayesində aparıcı rol oynadığını iddia edilmiş, bunu əsaslandırmaq üçün guya Bakıda ilk neft buruğunun 1869-cu ildə erməni sahibkarı Ovanes Mirzoyev tərəfindən qazılmasını göstərmişdir [7]. Daha sonra Bakı neft sənayesində çoxlu sayda erməni sənayeçisinin fəaliyyət göstərdiyi, onların içərisində A.Mantaşev və S.Lianozovun aparıcı rol oynadığını iddia etmişdir. Başqa bir erməni müəllifinin yazdığına görə, guya 1907-ci ildə Bakı rayonunda hasil edilmiş 448 milyon pud neftin 54,4 faizi erməni sahibkarlarının, 39,6 faizi avropalı və rus sənayeçilərinin, cəmisi 8,7 faizinin də digər Qafqaz xalqlarının nümayəndələrinin [8], yəni azərbaycanlı neftxudaların payına düşdüyünü irəli sürmüşdür.

1916-cı ilə olan məlumata görə, Bakı şəhər rəisliyində 7700 nəfəri yəhudi yaşayırdı [9, s.182-185] və bu rəqəmlərə görə yəhudilər, şəhər əhalisinin rus və ermənilərdən sonra, ən çoxsaylı qeyri-azərbaycanlı əhalisi idi.

1914-cü və 1916-cı ilə aid statistik məlumatların təhlili göstərir ki, Birinci dünya müharibəsinin başlanmasından sonra keçən iki il ərzində həm Bakı quberniyasında, həm də Bakı şəhər rəisliyi ərazisində yaşayan azərbaycanlıların sayı daha sürətlə artmışdı. Eyni zamanda Bakının sərvətlərinə göz dikən ermənilərin də sayı Şərqi Anadoludan qaçqın düşən erməni ailələrin hesabına artmaqda idi. Lakin bu, yerli azərbaycanlı əhalinin Bakıda digər xalqların nümayəndələrindən, eləcə də ermənilərdən dəfələrlə çox olması gerçəyini dəyişmirdi.

## Ədəbiyyat


1. Əliyeva F.Ə. (2016), Cənubi Qafqazın azərbaycanlı əhalisi. Bakı: "Avropa" nəşriyyatı, 168s.
2. Əsədova R.B. (2015), Birinci dünya müharibəsi və Şimali Azərbaycan iqtisadiyyatı. Bakı: "Turxan" NPB, 200 s.
3. Армянский Баку – город, которого нет //https://russia-armenia. info/node/59286 23.06.2019
4. Арустамян В. Город утраченный – город утративший http://armenianhouse.org/arustamyan/town-ru.html
5. Баку по переписи 22 октября 1903 г. Баку: изд. Бакинского общ-го управления, 1905.
6. Кавказский календарь на 1914 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1913, отд. статистический, с.110-113.
7. Кавказский календарь на 1915 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1914, отд. статистический, с.215-225.

8. Кавказский календарь на 1916 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1915, отд. статистический, с.99-100.
9. Кавказский календарь на 1917 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1916, отд. статистический, с.178-185.